# Yeni jurnal işıq üzü gördü

"Azərkitab" kitab mərkəzi bu yaxınlarda fəaliyyətlərinin bir ili ilə əlaqədar nəfis tərtibatda "Məqsəd kitaba dönməkdir" başlıqlı xüsusi buraxılışını oxucularının ixtiyarına vermişdir. Jurnalın hazırlanmasında layihə rəhbəri Mirisrafil Sabir Həsənovun əvəzsiz xidmətləri olmuşdur.

Jurnalın baş redaktoru Misirxan Həsənov, elmi məsləhətçisi və ön söz müəllifi, Əməkdar elm xadimi, professor Abuzər Xələfovdur.

Jurnalın ilk səhifəsi ulu öndər Heydər Əliyevin müdrik kəlamı ilə açılır: "Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq, ona görə də kitaba borcluyuq".

Professor Abuzər Xələfovun "Azərkitab və Azərbaycanda kitab yayım mədəniyyəti" adlı ön sözü Azərbaycanda qədim və zəngin mədəniyyətə malik kitabçılığın yaranma tarixi və inkişafına həsr edilmişdir.

Kitabları göz bəbəyi kimi qoruyan və qısa bir zamanda respublikanın hüdudlarından kənarda da hörmət qazanmış "Azərkitab" kitab təbliğat mərkəzinin layihə rəhbəri Mirisrafil Sabir Həsənovun "Kitab mənim həyatımdır" məqaləsi əslində kitabsevərlərin də fikirlərini ifadə edir.

"Kitabı oxumaq, sevmək və qorumaq hər kəsin borcudur. Nə qədər sosial şəbəkələr, internet saytları fəaliyyət göstərsə də, kitabdan alınan mənəvi zövq başqadır. Kitab insanların dünyagörüşünü zənginləşdirir, hər kəsi, bütünlükdə cəmiyyəti maarifləndirir. Kitab bilik mənbəyi, böyük məxəz, bitib-tükənməyən xəzinədir. Belə demək olar ki, hər bir kitab tariximizin bir səhifəsidir. Əsrlərlə qorunub saxlanılan kitablar xalqımızın milli sərvətidir".

"Azərkitab" kitab təbliğatı mərkəzinin direktoru Misirxan Həsənovun "Azərkitab" — ən böyük mənəviyyat imtahanım" məqaləsi xüsusilə diqqəti cəlb edir. Müəllif yazır: "Respublikamızın sənayeləşmə prosesinin sürətlə həyata keçirilməsi müstəvisində hər rayon mərkəzində, heç olmasa, "Azərkitab"ın bir kitab evi və ya kitab mərkəzinin açılması, kitab yayımının təbliğinin, təşkilinin təmin olunması ən böyük arzumuzdur. Belə ki, kitab mərkəzləri milli ideolgoyanın təbliğat vasitəsidir və təsirli informasiya xidməti göstərməyə qadirdir".




Jurnalda bir il ərzində keçirilmiş möhtəşəm tədbirlər barədə məlumat verilməklə yanaşı, ayrı-ayrı tədbirlərdən alınmış fotolar da oxucularda böyük maraq doğurur.

Bu mərkəzə hər kəs diqqət və qayğı göstərməlidir.

Mərkəzin kollektivinə uğurlar arzulayır və deyirik: Gəlin kitab oxuyaq. Kitabları qoruyub gələcək nəslə çatdırmaq hər birimizin mənəvi borcudur.

**Rauf İLYASOĞLU.**